**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX ƏSRİN İKİNCİ YARISINDA CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA İDEYA-MÖVZU VƏ POETİKA MƏSƏLƏLƏRİ

**İxtisas:** **5716.01 – Azərbaycan ədəbiyyatı**

**Elm sahəsi:** **Filologiya**

**İddiaçı:** **Mətanət Qurban qızı Şahaliyeva**

**Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Şəxsi Arxivlərin tədqiqi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Vüqar Mikayıl oğlu Əhməd**
Filologiya elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **İslam Eynəli oğlu Qəribov**
Filologiya elmləri doktoru, professor

**Elman Hilal oğlu Quliyev**
Filologiya elmləri doktoru, professor

**Laləzar İkram qızı Əlizadə**
Filologiya elmləri doktoru, dosent

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED1.27 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor

________________ **Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi:
filologiya üzrə fəlsəfə doktoru, dosent

________________ **Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri:
filologiya elmləri doktoru, dosent

________________ **Leyla Kamran qızı Məmmədova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX əsrin istər birinci, istərsə də ikinci yarısında Şimalda olduğu kimi, Cənubi Azərbaycan ədəbiyyatında da bir sıra janrların, xüsusilə nəsr və dram nümunələrinin formalaşması bədii təfəkkürün inkişafına istiqamət vermiş oldu. Bu zaman sənətkarların elmi-nəzəri publisist əsərlərə üstünlük verməlǝri xalqı düşündürən problemlərin həlli yolunda atılmış bir addım kimi qiymətləndirmək daha düzgün olar.

Qədim Şərq mədəniyyətinin beşiyi sayılan Azərbaycanın Rus imperiyasının tərkibinə daxil olması böyük bir faciənin başlanğıcını qoymuş olsa da yeni mədəni əlaqələrin yaranmasına şərait yaratdı. Bu isə ədəbiyyatşünaslıqda yeni realist forma və janrların yaranmasına səbəb oldu.

Şimali Azərbaycan ədəbiyyatında məcburi yenilənmə həm Rusiya, həm də Qərbə olan maraqdan qaynaqlanırdı. Təbii ki,Şimali Azərbaycandakı mühitin fərqliliyi Cənubi Azərbaycanın ədəbi və ictimai-siyasi fikrinin inkişafından yan keçmədi. Doğrudur, Cənubi Azərbaycanın azad düşüncəli insanları fərqli mühitdə yaşasalar da Şimali Azərbaycan ədəbiyyatına qarşı maraqları həmişə güclü olmuşdur.

Məlumdur ki, hər bir yenilik gerçək həyatın məhsuludur. Həyatın bu reallığı ədəbi mövzularda da özünü aydın şəkildə biruzə verirdi. Bu mənada ictimai xadim, dramaturq M.F.Axundzadənin müasir İran gercəkliyini əks etdirən komediyaları, “Kəmalüddövlə məktublari” fəlsəfi traktakı, “Aldanmış Kəvakib” povesti Cənubi Azərbaycan xalqının ədəbi düşüncə tərzində böyük bir mərhələ oldu. Dramaturqun istər bədii, istərsə də elmi-publisistik yaradıcılığı, xüsusilə məqalə və məktublarında qoyulan məsələlər təkcə Şimalda yaşayan azərbaycanlıların deyil, Cənubi Azərbaycan xalqının da yaşadığı problemli məsələlər idi. Ədib əsərlərində yalnız bunları yazmaqla kifayətlənmir, həll yolunu da göstərirdi. Məhz bunun nəticəsi idi ki, XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatında Z.Marağayı, M.Ə.Talıbovun yaradıcılığı ilə dövrün

ictimai, publisist görüşlərini özündə əks etdirən roman janrı yarandı, ilk orijinal farsdilli dramaturgiyanın yaradıcısı olmaq isə M.A.Təbriziyə nəsib oldu.

XIX əsrin əvvəllərində olduğu kimi, əsrin sonlarında da Azərbaycan xalqının yaşadığı acı gerçəkliklər, feodal istibdad quruluşundakı rüşvətxorluğun, ictimai bəlaların cəmiyyətdə fasiləsiz xaosun yaranmasının bariz nümunəsi idi. Nəticədə, feodal zülmü altında yaşayan xalqın acı həyat hekayələri yeni realist janrların yaranmasına təkan vermiş oldu. Bu bir həqiqətdir ki, xalq düşüncəsini bədii sözün ecazkar gücünə və zamana görə xərcləyir. Bu mənada, Cənubi Azərbaycan ədəbiyyatında nəsrin, dramaturgiyanın yaranması müasir İranın ictimai şəraitindən doğan gerçək həyatın özü idi. Məhz buna görə də XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatında realizm istiqamətində formalaşan poeziya, bədii nəsr, satira və dramaturgiyanın tədqiqi müasir İranın ictimai-siyasi şəraitin tam və dolğun şəkildə öyrənilməsini qarşıya qoyur.

Şimali Azərbaycan ədəbiyyatında poeziya, bədii nəsr, dramaturgiyanın tarixini nəzərdən keçirdiyimiz zaman ədəbiyyatda realizmə doğru ideya-mövzu və sənətkarlıq baxımından zəngin inkişaf yolunu müşahidə etmək mümkündür. Bu mənada Şimali Azərbaycan ədəbiyyatlnda realizm üzərindən köklənən poeziya, bədii nəsr, satira və dramaturgiyanın yeni dövrün tələblərinə uyğun faktorların Cənubi Azərbaycan ədəbiyyatında yox dərəcəsində olması təəssüf doğuran hal idi. Bunların yaranmasına isə ehtiyac duyulurdu. Bütün bunlar qoyulan məsələlərin tədqiqi və mövzunun aktuallığını gündəmə gətirmiş olur.

Bu səbəbdəndir ki, XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatında formalaşan poeziya, bədii nəsr və dramaturgiyanın ideya-mövzu, poetikası baxımından ədəbiyyatşünaslarımız tərəfindən öyrənilməsi və tədqiq edilməsi aktual məsələ kimi məqbul sayıla bilər.

Azərbaycan ədəbiyyatşünaslıq tarixində Cənubi Azərbaycan mövzusu hər zaman gündəmdə olmuşdur. Doğrudur, ayrı-ayrı tədqiqatçıların araşdırmalarında Cənub mövzusu sistemli şəkildə

olmasa da yaranan poeziya, nəsr və dramaturgiya barədə yazılı sənədlər: müxtəlif tədqiqat işləri, monoqrafiya, məqalələr və s. mənbələrdə öz əksini tapmışdır. Prof. Feyzulla Qasımzadə "XX əsr Azərbaycan ədəbiyyatı" (1966,1974,2017), Əbulfəzl Hüseynin "Mirzə Ağa Təbrizinin həyat və yaradıcılığı" dissertasiyası (1968), Mirəli Mənafi "Mirzə Əbdürrəhim Talıbov (həyat və yaradıcılığı)" (1977) monoqrafiyası, Akad. Mir Cəlal Paşayev, pof. Firidun Hüseynov "XX əsr Azərbaycan ədəbiyyatı" (1982), dörd cildlik: "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"(1981,1983, 1988, 1994), Əflatun Saraclı "Zeynalabdin Marağalı"oçerki (1986), Mahmizər Həmidqızı Mehdibəyova "Zeynalabdin Marağayının "İbrahim bəyin səyahətnaməsi"romanı (monoqrafiya) (2001), iki cildlik "Cənubi Azərbaycan ədəbiyyatı tarixi" (XIX-XX əsrlər) (2009), Pərvanə Məmmədli "Cənubi Azərbaycan mətbuat tarixi" (2009),"Cənubi Azərbaycan ədəbiyyatında tədqiqlər" I-II buraxılışlar (2015, 2016), Pərvanə Məmmədli "Cənubi Azərbaycan ədəbi şəxsiyyətlər, portretlər" (2015), Salatın Əhmədova və Teymur Əhmədovun tərtibatında "XIX əsr Azərbaycan ədəbiyyatı" (2009, 2012, 2014), "Güney Azərbaycan nəsri başlanğıcdan bu günə qədər" (Antologiya) (2017), prof. Vüqar Əhməd və Dilbər Rzayevanın tərtibatında "Cənubi Azərbaycan şeiri antologiyası (XIX-XXI əsrlər)" (2018) və.s. mənbələr mövcuddur.

Tədqiqat işində Rusiya, Avropa, Türkiyə ədəbiyyatşünas alimlərinin XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatında yaranan nəsr və dramaturgiya haqqında irəli sürdüyü mülahizələrindən, həmçinin Cənubi Azərbaycan və müasir İran tədqiqatçılarından: Hüseyn Düzgün, Əhməd Kəsrəvi, Şərifi, Pərviz Şahmirisi, Xosrov Ziya, İrəc Əfşar, İrəc Zəhri, Fərid Fəthi, Pərviz Kataebi, Mail Bektaş, Rəşnozadə, İsmayıl Kərəmi, M.B.Məhlucian, Firudin Adamiyyət, Həmid Salek və s. ədəbiyyatşünas alimlərinin verdikləri məlumatlar informasiya mənbəyi kimi tədqiqat işində istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini XIX əsrin II yarısında Cənubi Azərbaycanda yaranmış poeziya, bədii nəsr və dram əsərləri təşkil edir. Cənubi Azərbaycanın ictimai-siyasi

mühiti, məişət həyatı təkcə bədii nəsrdə deyil, satirik və publisistik üslubda yazılan əsərlərdə də əks olunmuşdur.

Tədqiqatda daha çox Cənubi Azərbaycanda yaranan yeni janrların, xüsusilə, dramaturgiyanın təşəkkülünü şərtləndirən fikir, mülahizələr önə çəkilmiş, realizm və satiranı özündə birləşdirən dövrün bir çox geniş məsələlərini əks etdirən çoxfunksiyalılıq əsərlərin təhlili yer almışdır. İşin yazılma prosesi zamanı mövzu ilə bağlı tədqiqata aid mənbələrdən qaynaqlanaraq, ədəbiyyatşünas alimlərinin fikir, mülahizələrindən istifadə olunmuş və onlara münasibət bildirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Cənubi Azərbaycan ədəbiyyatında indiyədək poeziya, bədii nəsr və dramaturgiya ideya, mövzu baxımından tədqiqat obyekti kimi az öyrənilmişdir. Dissertasiya işinin məqsədi ədəbiyyatşünaslıqdakı bu boşluğu aradan qaldırmaq, bu məqsədlə də ədəbiyyat və tarixi materiallar əsasında arxiv materiallarından istifadə edilərək, XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatını kompleks şəkildə araşdırmaq olmuşdur.

Dissertasiya işində XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatında poeziya, bədii nəsr və dramaturgiyanın ideya-mövzu və poetikasının xüsusiyyətləri nisbi səviyyədə təhlil edilmişdir.

Tədqiqatda Güney Azərbaycanın ( Iran) ictimai-siyasi və gerçək həyatını dolğun şəkildə əks etdirən əsərlərin təhlili, həmçinin bədii janrların Quzey Azərbaycanın ədəbi-ictimai mühiti ilə əlaqələri önə çəkilmiş, bu məqsədlə dissertasiyanın qarşısına aşağıdakı vəzifələr qoyulmuşdur:

- Cənubi Azərbaycan ədəbiyyatının, bütövlükdə müasir İranın iqtisadi-siyasi mədəni tarixi şəraitini açıqlamaq;
- XIX əsrin ikinci yarısında Cənubi Azərbaycandakı ədəbi-ictimai əlaqələri araşdırmaq;
- Cənubi Azərbaycan ədəbiyyatında poeziya, nəsr və dramaturgiyanın inkişafında mühüm rol oynayan sənətkarların həyat və yaradıcılığını araşdırmaq.

- Təhlil olunan əsərləri əsrin ictimai-siyasi hadisələri fonunda xarakterizə etmək;

- XIX əsrin ikinci yarısında poeziya, bədii nəsrin inkişafına aydınlıq gətirmək və fars dilli dramaturgiyanın yaranmasını doğuran səbəbləri göstərmək;

- Cənubi Azərbaycanda farsdilli dramaturgiyanın yaradıcısı M.A.Təbrizini ədəbi tənqidi fikrin formalaşmasında xidmətləri olan ictimai xadim, nasir və dramaturq M.F.Axundzadənin yetirməsi kimi göstərmək;

- Poeziya, bədii nəsr və dram əsərlərinin janr və poetik xüsusiyyətləri, obrazların özünəməxsusluğu, ideya-mövzu barədə yekun nəticəyə gəlmək;

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işinin mündəricatı əhatə etdiyi müqayisələr, əlaqələr, klassik və cağdaş ədəbi düşüncənin müddəaları dissertasiyanın bilavasitə nəzəri-metodoloji əsasını təşkil edir. Dissertasiyanın obyektini Cənubi Azərbaycan ədəbiyyatının poeziya, bədii-nəsr və dramaturgiyasının ideya-mövzu və poetik cəhətdən araşdırılması, müasir dövrdə Şimali Azərbaycan və Cənubi Azərbaycan ədəbiyyatının müqayisəli şəkildə təhlili təşkil edir. Tədqiqat işinin metodoloji əsasında tarixilik prinsipi və ədəbi düşüncənin məhsulu olan ədəbiyyatın ictimai həyatla əlaqəsinin vəhdəti dayansa da dissertasiyada müqayisəli təhlillərdən səmərəli istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Cənubi Azərbaycan ədəbiyyatında, ümumən müasir İranda yeni realist yanrların yaranmasi və ədəbi –tənqidi fikrin formalaşmasında M.F.Axundzadənin mühüm rolu olmuşdur;

-XIX əsrin ikinci yarısında əsasən realist üslübda inkişaf edən Cənubi Azərbaycan poeziyası nəzirə və təqlidçilikdən çıxaraq, məzmunca dəyişilərək mənbəyini xalq yaradıcılığından alaraq, dil cəhətdən oxunaqlı və insana yüksək bəşəri duyğular aşılayan əsərlər yazılmağa başlandı;

-Bu dövrün poeziyası estetik tərzli ricətlərlə və bədii ifadə zənginliyinin bolluğu ilə fərqlənir;

-Cənubi Azərbaycanın həyat tərzi, ictimai zülmə qarşı boyun əyməmək, insanların ruhunda oyanan yeni duyğuların bədii ifadəsi poeziyada və nəsrdə öz əksinin tapdı;

-Cənubi Azərbaycanda qabaqcıl ideyaların, yeni baxış və vərdişlərin yaranması yeni ədəbi- bədii janrların formalaşmasına meylliliyi artırdı, nəticədə formalizmdən uzaq, canlı həyat lövhələrini əks etdirən, ictimai satiranı özündə ehtifa edən bədii nəsr yarandı;

-M.F.Axundzadənin bədii yaradıcılığı, xüsusilə dramaturgiyasının Cənubi Azərbaycan ədəbiyyatına və ölkənin ictimai-ədəbi mühitinə təsiri onu deməyə əsas verir ki, Cənubi Azərbaycan ədəbiyyatının (poezıya, nəsr, dramaturgiya) inkişafı dramaturqun daim diqqətində olmuşdur;

-Cənubi Azərbaycan ədəbiyyatını tədqiq edən Azərbaycan və dünya alimlərinin tədqiqatlarında istər poeziya, istər nəsr və dramauturgiya ilə əlaqədar irəli sürülən bir qisim yanlış fikirlərə aydınlıq gətirilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatda XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatında poeziya, satira, bədii nəsr və dramaturgiya haqqında elmi araşdırılma aparılmış və bədii janrların poetikası bilavasitə önə çəkilmişdir. İlk dəfə olaraq, Cənubi Azərbaycan ədəbiyyatında poeziya, bədii nəsr və dramaturgiyanın poetikası tədqiqatın predmeti kimi götürülərək Cənubi Azərbaycanın ədəbi, ictimai-siyasi həyatı ilə əlaqəli şəkildə verilmişdir.

Elmi araşdırma zamanı təkcə XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatında formalaşan poeziya, bədii nəsr və dramaturgiyada müasir İranın ictimai-siyasi həyatı deyil, həm də Şimali Azərbaycanın ictimai-siyasi və ədəbi görüşləri diqqətə alınmışdır. Ən yaxşı halda Cənubi Azərbaycanın Şimali Azərbaycan ədəbi mühiti ilə əlaqəli şəkildə təhlil olunmasıdır.

Təqdim olunan dissertasiyada müasir dövrün ictimai-siyasi baxışı analiz olunur, Cənubi Azərbaycanın bir çox ədib və ictimai xadimlərinin həyat və yaradıcılığına toxunulur.

Tədqiqatdakı elmi yenilikləri aşağıdakı kimi dəyərləndirmək olar:

- Dissertasiyada ilk dəfə olaraq, Cənubi Azərbaycan ədəbiyyatında poeziya, bədii nəsr və dramaturgiyası sistemli şəkildə araşdırılmış və poetikasına aydınlıq gətirilmişdir;

- Tədqiqat obyekti kimi araşdırılan əsərlərin özünəməxsusluğu və poetikası konkret nümunələrlə təhlil edilmişdir;

- Tədqiqatda poeziyada bədii poetikanın təhlili, bədii nəsr və dramaturgiyada isə dövrün ictimai-siyasi hadisələrindən doğan sosial ədalətsizliklər kimi məsələlərin izahına diqqət verilmişdir;

- Tədqiqatda hər bir bədii janrları doğuran səbəblərə aydınlıq gətirilmiş, həmçinin ədəbi simaların həyata baxışı müəyyən kontekstdə araşdırılmaqla yanaşı dövrün ictimai-siyası tarixi şəraiti nəzərə alınmışdır.

Qeyd olunmalıdır ki, müasir ədəbiyyatşünaslıqda mövzunun əhatə dairəsi geniş olduğundan ədəbiyyatşünaslar, ayrı-ayrı tədqiqatçılar Cənubi Azərbaycan ədəbiyyatında poeziya, bədii nəsr və dranaturgiyanın yaranma tarixinin öyrənilməsi istiqamətində bir sıra elmi tədqiqat işləri, monoqrafiyalar və s. yazsalar da müəyyən bir boşluq bu gün də hiss olunmaqdadır. Dissertasiyada bu boşluğu nisbətən doldurmaq üçün aparılan araşdırma işini elmi yenilik kimi qiymətləndirmək olar.

Tədqiqatda XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatında poeziya, bədii nəsr, dramaturgiyanın ideya-mövzu, poetikası haqqında hərtərəfli elmi mənbələrə baxılmış, araşdırma zamanı məlumat xarakterli informasiyalar daşıyan əski ədəbiyyata və mətnlərə də üstünlük verilmişdir.

Araşdırılan mənbələr Cənubi Azərbaycan ədəbiyyatının tədrisində və tədqiqində istifadə oluna bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqatda Cənubi Azərbaycan poeziya, bədii nəsr və dramaturgiyanın ideya-mövzu və poetik xüsusiyyətləri hərtərəfli tədqiq edilir. Tədqiqat işinin əsasında dayanan XIX əsrin ikinci yarısında Cənubi Azərbaycanın ictimai-siyasi, ədəbi mühiti ölkələrarası ədəbi əlaqələrə təsiri kimi götürülmüş və ümumiləşdirmə aparmaq baxımından da mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, Cənubi Azərbaycan ədəbiyyatında poeziya, bədii nəsr və dramaturgiyası dil baxımından fars poetikasının xüsusiyyətlərinin əlamətlərini daşısa da ideya, məzmun baxımından Şimali Azərbaycan ədəbiyyatının bədii düşüncəsinin əvəzolunmaz məhsulu sayılır. Məhz bu səbəbdəndir ki, dissertasiyada mənbələrdən müqayisəli şəkildə istifadə edilmiş, verilən ədəbi-bədii nümunə və mənbələrin meydana çıxdığı tarixi şərait sistemli şəkildə araşdırılmasına səy göstərilmişdir.

Dissertasiyanın nəzəri hissəsi və elmi nəticələri tədris işləri proseslərində öyrənilə bilər. Tədqiqat işində gələcəkdə XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatının poeziya, bədii nəsr və dramaturgiya ilə bağlı məsələləri araşdırmağa çalışan magistr, dissertant və doktorantlar üçün dəyərli örnək ola bilər.

**Tədqiqatın aprobosiyası və tətbiqi.** Tədqiqatın nəzəri müddəa və nəticələri Beynəlxalq elmi- nəzəri konfranslar, iclas və çıxışlarda məruzə mətnlərində öz əksini tapmışdır. Dissertasiyanın əsas məzmununda irəli sürülən məsələlər həm ölkədaxili, həm də xarici elmi yurnallarda tezis, məqalə və monoqrafiya şəklində dərc edilib, həmçinin müxtəlif xarici ölkələrdə keçirilən Beynəlxalq elmi konfrans və konqreslərdə məruzə olunub. Dissertasiya mövzusu üzrə 18 elmi iş və bir monoqrafiya çap olunmuşdur. Onlardan 10 məqalə resenziya olunan elmi jurnallarda (1-i xaricdə olmaqla), 6 məqalə Beynəlxalq, 2 məqalə Respublika Elmi konfrans materiallarında nəşr olunmuşdur

**Tədqiqat işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Şəxsi Arxivlərin tədqiqi şöbəsində terinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və həcmi**. Dissertasiya "Giriş" (14395 işarə), I fəsil (135569 işarə), II fəsil (74100 işarə), III fəsil (40774 işarə), "Nəticə" (5205 işarə), ümumilikdə 270044 işarə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, predmeti, müdafiəyə çixarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti, aprobasiyası şərh edilir və əsaslandırılır.

Disssertasiyanın I fəsli **"XIX əsrin ikinci yarısında Cənubi Azərbaycanda poeziyanın təmayülləri və inkişaf xüsusiyyətləri"** adlanır. Bu fəsil üç paraqrafa bölünür.

XIX yüzillikdə müasir İran və Rusiya arasında ziddiyətlərin dərinləşməsi Azərbaycan xalqının müqəddəratında kəskin dönüşün başlanğıcını və "Türkmənçay" razılaşmasına qədər eyni istiqamətdə yuruyən mədəniyətimizin sonrakı təkamülündə yeni səhifələrin açılmasına səbəb oldu.

Şimali və Cənubi Azərbaycanda yaranan sosial-iqtisadi, siyasi durum Azərbaycan xalqının həyatında həlledici dəyişikliyə səbəb oldu. Rusiya imperiyasının tərkibinə daxil olması ilə Şimalı Azərbaycan sürətlə kapitalizm inkişaf yoluna qədəm qoydu. Bu dönəmdə çarizm qeyri-rus xalqlarına qarşı müstəmləkəçilik siyasəti yeritsə də rus xalqının klassik ədəbiyyatı və mədəniyyəti ölkədə azadlıq ideyalarının oyanmasına, həmçinin müasir həyat həqiqətlərinə söykənən, geniş xalq kütlələrinin dərk edə biləcəyi yeni əsərlərin yaranmasına zəmin yaratmış oldu. Şimali Azərbaycanın maarifçilik hərəkatının yaranmasında Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Seyid Əzim Şirvani kimi söz sahiblərinin rolu əvəzolunmazdır. Xüsusilə, ictimai xadim, dramaturq, nasir Mirzə Fətəli Axundzadənin fəlsəfi baxışları, publisistik yaradıcılığı, elmi dünyagörüşü Cənubi Azərbaycan ədəbiyyatına yeni məzmun və istiqamət vermiş oldu. Cənubi Azərbaycanın bir çox ictimai xadim və nasirlərinin, o cümlədən Zeynalabdin Marağayı, Mirzə Əbdürrəhman Talıbov, Yusif xan və.s. dünyagörüşünə, yaradıcılığına Mirzə Fətəli Axundzadənin təsiri böyük olmuşdur. Təbii ki. bu da Cənubi Azərbaycanda mütərəqqi və demokratik ruhlu ədəbi mühitin formalaşmasına bir növ zəmin yaratdı.

**"Poeziyada dünyəvi, dini və təriqət ideyalarının bədii vəhdəti və inkası (T.M.Dilsuz, Pürqəm, M.H.Dəxil, X.Aciz)"** adlı paraqrafda T.M.Dilsuz, Pürqəm, M.H.Dəxil və X.Acizin həyat və yaradıcılıqları müasir baxımdan araşdırılmış, poetikası nümunələrlə şərh olunmuşdur. Aparılan araşdirmalarin ümumləşdirməsi belə bir mülahizə sürməyə imkan verir ki, XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatının poeziyası yeni konteksdə meydana gəldi. Klassik şeir (qəzəl, qəsidə, məsnəvi, tərkibənd, tərcibənd və s.) şəkilcə deyil, məzmunca da dəyişildi.Yeni yaranan poeziya daha çox mütərəqqi fikirlər aşılayan, mənbəyini xalq yaradıcılığından alaraq mövzu və dil sadəliyi cəhətdən həyatı dolğun, realistcəsinə əks etdirdi. Həm Şimali Azərbaycan, həm də Cənubi Azərbaycanın ədəbiyyatının inkişaf prosesi ölkənin ictimai-siyasi həyatı ilə bilavasitə əlaqəli şəkildə formalaşaraq, poeziyanın mövzusunda və sairlərin yaradıcılığında özünü göstərdi. Poeziyada qələmlərini sınayan şairlərin ruhu, xarakteri etibarilə M. Füzuli lirikasına yaxın olsa da, qəzəllərin dilindəki lirizm orijinallığı ilə daha çox seçilirdi. Poeziyaya çox böyük əhəmiyyət verən M.F.Axundzadə yazır: *"poeziyada məzmun gərək bəməratib nəsirdə bəyan olunan məzamindən müəssirtər düşə və ya poeziya gərək ya hekayətə, ya şikayətə şamil ola*"[1] Beləliklə, qəzəl üslubunda yazan şairlər nəzirə və təqlidçilikdən çıxır, nəticədə T.M.Dilsuz, Pürqəm, M.H.Dəxil və X.Aciz və s. şairlər insana yüksək səmimi hisslər, bəşəri duyğular aşılayan və fəlsəfi məzmunlu əsərlər yazmağa başladılar. M.İbrahimov yazır: *"XIX əsr Cənubi Azərbaycan şairlərinin yaradıcılığında qəzəl böyük yer tutur. Bu qəzəllərdə sözün əsl mənasında ənənəvi mövzularla yanaşı real həyat hisslərin ifadəsinə də rast gəlinir"*[2] Bu dövrün poeziyası realizm və xəlqilik üzərində köklənir, şairlər şeirlərində daha çox ifadə səlisliyinə, sözlərin düzgün seçilməsinə, təsvir və ifadə vasitələrinin bədiiliyinə fikir verməyə çalışırdılar. Şairlərin yaradıcılığında əsas aparıcı mövzu

---

[1] Axundzadə, M.F. Seçilmiş əsərləri. Üç cilddə. II cild / M.F. Axundov. - Bakı: Şərq Qərb, - 2005. - 31 s.

[2] İbrahimov, M. Əsərləri. On cilddə. IX cild / M.İbrahimov.- Bakı: Yazıçı, - 1982. - 639 s

mərsiyə, növhə, sinəzənlər olsa da ictimai-siyasi məzmunlu şeirləri də yox deyildi. Bu baxımdan da T.M.Dilsuz, Pürqəm, M.H.Dəxil, X.Aciz və. s. şairlərin yaradıcılığı dövrün Cənubi Azərbaycan poeziyası haqqında aydin təsəvvür yaradır.

Dilsuzun yaradıcılığının əsasını fəlsəfi görüşlərə qarşı aludəçilik, təsəvvüf və poetik düşüncə təşkil etdiyi halda, Pürqəmin poeziyası əsasən mərsiyə üslubunda inkişaf edir, daha çox Əhli-beyt övladlarının (Həzrəti Məhəmməd, İmam Əli, Həzrəti Fatimə, İmam Həsən və İmam Hüseyn) taleyi mövzusunda oxunaqlı mərsiyələr yazırdı. Dəxil isə mərsiyələrində İslamın müqəddəs kitabı sayılan "Qurani-Kərim"in hər bir ayəsini ayrı-ayrılıqda mənalarını böyük ustalıqla aça bilmişdi. Təsadüfü deyil ki,*"İran ədəbiyyatında türk mərsiyyəsinin banisi olan Dəxil mərsiyyələrində Aşura hadisələrini sanki canlı şəkildə izah etməyə çalışmiş"*[3] *dı.* Məhz bu nöqteyi-nəzərdən şairin yaradıcılığı XIX əsrin ikinci yarısında mərsiyə ədəbiyyatında əsaslı yenilik yaradan ədəbi hadisə kimi araşdırılmışdır. Aciz poeziyası isə klassik və sifahi xalq şeri üzərində qurulmuşdur. Bu səpgidə yazdığı şeirlərində bədii təsvir vasitələrindən dolğun şəkildə istifadə edən Acizin duyğu və düşüncələri dövrün poeziyası haqqinda dolğun fikir yaradır.

**"M.Ə.Ləli, M.M.Şükuhi, Ə.Raci, H.R.Sərraf yaradıcılıqlarının tematikası və ideya-bədii xüsusiyyətləri"** adlı paraqrafda M.Ə.Ləli, M.M.Şükuhi, Ə.Raci, H.R.Sərrafın yaradıcılıqlarının tematikası və ideya-bədii xüsusiyyətləri əksini tapır. Şeirlərində irəli sürülən ideyalar hər iki tərəfin ədəbiyyatı üçün əhəmiyyətlı oldğu kimi, qoyulan məsələlər bu gün də aktuallığını qoruyub saxlayır. XIX əsr Cənubi Azərbaycan ədəbiyyatında bir çox şairlərin, o cümlədən M.Ə.Ləli, M.M.Şükuhi, Ə.Raci, H.R.Sərrafın şeirlərindəki dövrün haqsızlığına qarşı satirik münasibət diqqət çəkir. Ləli qəzəllərində dünyəvi məhəbbətdən söhbət açdığı halda, ictimai məzmunlu şeirlərində isə müasirləri kimi o da cavabı olmayan sualların axtarışında olmuşdur: *"insanların həyatını korlayan, onları*

---

[3] خبرگزاری جمهوری اسلامی ایران. دخیل-مراغه-اي-مقتل-نويس-گم-گشته-در-شور-و-شعور-حسيني
http://tebyan-tabriz.ir/?MID=21&Type=News&ID=36821

*bir-birinə düşmən edən ictimai ziddiyyətlər barədə söhbət açan*"[4] şair hadisələrə kor-koranə münasibət bildirmir, xalqı yoxsul, dilənçi kökünə salan şaha qarşı nifrətini bildirməkdən belə çəkinmir. M.M.Şükuhinin yaradıcılığı isə müasirlərindən fərqlidir.Yəni: *"şairin gerçək aləmi dərindən duyması, reallıq, səmimilik və həyatı düzgün tərənnüm etməsi ilə əlaqədar"*[5] dır. M.M.Şükuhinin "Mənazpeyi-Əql və Eşq" poeması ictimai məzmun dərinliyi ilə seçilir. Mənazpeyi-Əql və Eşq" "eynilə M.Füzulinin *"Bəngü-Badəsi"ndə olduğu kimi, burada da onun şiddətli yerində Eşq Allaha dua edib, yardım istəyir və qalib gələrsə Əqlə zülm etməyəcəyini, təxti-tacını özünə qaytarıb əsirlərini buraxacağına and içir"*[6]. Maraqlı sujet əsasında yazılmış poemada M.Füzulinin "Bəngü-Badə" əsərinin təsiri duyulsa da, M.M. Şükuhi M.Füzulidən fərqli , kainat, təbiət, cəmiyyət haqqındakı mütərəqqi ictimai-fəlsəfi fikirlərini mövhumata qarşı qoyur, azad sevgiyə müsbət yanaşaraq, qoyulan qadağalara etiraz səsini ucaldır. Əsərlərində məhkum xalqın mənafeyini müdafiə edən M.M.Şükuhinin əksinə Əbülhəsən Raci yaradıcılığında dini məzmunlu növhələrə, mərsiyələrə daha çox yer ayırmışdır. Şair yaradıcılığında məcazlardan, bədii təsvir və ifadə vasitələrindən, eyni zamanda fonetik, leksik, sintaktik səviyyədə söz və ifadələrdən yerli-yerində, özünəməxsus şəkildə istifadə etməklə, incə söz sahibi olduğunu göstərmişdir. Hacı Rza Sərraf isə dini-fəlsəfi ictimai məzmunlu şeirləri ilə sələflərindən seçilir. Şairin yaradıcılığının əsas qayəsini poetizm təşkil edir. Şair şeirlərində ideya və məzmun dolğunluğuna, fikrin aydın ifadəsinə diqqət yetirmiş, yaradıcılığında isə bir-birindən mənalı, fərqli məcazlardan sənətkarlıqla istifadə etmişdir. Sözləri yerli-yerində işlətmək bacarığına malik olan şairin poeziyasında omonim (şəkilcə eyni, mənaca müxtəlif olan sözlər) sözlərə tez-tez rast gəlinir. Şairin

---

[4] İbrahimov, M. Əsərləri. On cilddə. IX cild / M.İbrahimov.- Bakı: Yazıçı, - 1982. - 653 s

[5] Məmmədəli, M. Mirzə Mehdi Şükuhi. (Həyat və yaradıcılığı) / M. Məmmədəli. Bakı: Yazıçı, - 1988. – s.58

[6] Quluzadə, M. Füzulinin lirikası / M.Quluzadə. - Bakı: Azərbaycan Elmlər Akademiyası, - 1965. - 402 s.

mərsiyələrinin mövzusu əhatəli və genişdir: İlkin halda Kərbəla şəhadəti, onun məqsədini dünyaya çatdırılması, ikinci halda xalqın oyanışı məsələsinin önə çəkilməsi. Şairi müasirlərindən fərqləndirən dilinin sadəliyi, forma və məzmunda yenilik etməsi olmuşdur.

**“M.B.Xalxali, S.Ə.Nəbati, M.Hidəcinin yaradıcılığında dini-fəlsəfi ideyaların poetik təzahürü”** adlı paraqrafda M.B.Xalxali, S.Ə.Nəbati, M.Hidəcinin yaradıcılığında dini-fəlsəfi ideyaların poetik xüsusiyyətləri önə çəkilir. Dövrünün ilk satirik realist poeziyasının nümayəndələrindən olan Ağa Məhəmməd Bağır Xalxalinin poetik dünyası çox zəngin olmuşdur. Qəzəllərindəki estetik tərzli ricətlər, poetik mübaliğə, səslərin ahəngi, poetik sintaksis, ifadə zənginliyi şairin klassik Şərq poeziyasının imkanlarına sahib olduğunu göstərir. Şairə uğur gətirən, 1600 beytdən ibarət olan “Sələbiyyə” məsnəvisi şairin ictimai-fəlsəfi, dini görüşlərini əks etdirir. *“Sələbiyyə”nin ərəb qrafikası ilə bütün nəşrlərdə başlıqlar farsca, mətnin özü isə Azərbaycanca yazılıb*”[7]. Sələbiyyə”nin üslub tərzi, forma, məzmunundakı fərqlilik onu daha çox dastana yaxınlaşdırır. Məsnəvidə Xalxalinin müxtəlif elm sahələrinə: hüquq, sənət, ədəbiyyat, təbiət, folklor, əxlaq, fəlsəfə, məntiq, tarix, dilçilik, estetik, həmçinin dini-fəlsəfi və ictimai məfhumlara aid baxışları ilə bağlı mülahizələri yer almışdır.

M.B.Xalxalinin *“Sələbiyyə” kitabçası ədəbiyyat xəzinəmizin ən qiymətli cəvahirlərindən və ən məqbul əsərlərindən biri”*dir.[8]

Ə.Nəbatinin isə ədəbiyyatımızdakı tarixi rolu poeziyaya gətirdiyi yenilikdir. Səməd Rəhmani yazır:“*Nəbati təkcə poeziyaya deyil, misraların düzülmələrinə də yenilik gətirmişdir: yəni çüt sıralanmadan istifadəsi şairin novatorluğunu göstərir*”[9] Misralarda sintaktik konstruksiyalar, leksik vahidlər və sinonim birləşmələrini

---

[7] Ağayev, İ. M.B.Xalxalinin Sələbiyyəəsərinin nəşri tarixi və xəttat rəssamları barədə // Azərbaycan SSRİ Elmlər Akademiyasının xəbərləri, Ədəbiyyat, dil, incəsənət seriyası, - 1983. № 1, -s.33 .

[8] Köçərli Firidun bəy. Azərbaycan ədəbiyyatı. İki cilddə. II cild / Firidun bəy Köçərli. - Bakı: Elm, - 1981. - 381 s.

[9] نباتی، شاعری پای در گذشته و چشم به آیندهخبرگزاری جمهوری اسلامی ایران.
https://www.irna.ir/news/83048965

yüksək sənətkarlıqla işlətməsi şairin özünəməxsusluğunu üzə çıxarmış olur. Şair təcnislərində daha çox fikrin tamlığına və cinasların mükəmməlliyinə üstünlük vermişdir. Şairin əruz şeirindəki imkanları da son dərəcə güclü olmuşdur. Klassik poeziyasında daha çox mütəqarib bəhrindən istifadə edən şair qəzəl, qəsidələrində misraların düzülməsində çüt sıralanmadan fərqli şəkildə istifadə etmişdir. Nəbatinin dünyaya baxışı, onu əhatə edən maddi varlığı anlamaq istəyi də fərqlidir. O, mövqeyini izah edərkən, Yaradanla arasındakı pərdəni qaldırmır, ruhun aşiqliyini əsas götürən şairin nəzərində xəyalət, meyxanə qapısından girmək, ancaq ilahi eşq sayəsində baş tuta bilər. M. Hidəci isə tam əksinə, təsəvvüf görüşlərində özünü sufilərdən ayrı sayır, onların yaradılış və kainat haqqındakı inanclarını qəbul etmir, eyni zamanda da sufiləri dəlil və arqumenti olmayan "düşüncə sahibi" adlandırır.

Zəngin bədii irsə sahib olan Hidəci Azərbaycan, fars və ərəb dillərinə bələd olan, Azərbaycan türkcəsinin zəncan şivəsində danışan və yazan şairlərdən biri olmuşdur. Şair klassik şeirin demək olar ki, əksər janrlarına müraciət etmiş, xüsusilə qəzəllərində yenilik edərək, bir ifadəni və ya sözü müxtəlif məqamlarda işlətməklə misralara axıcılıq və oynaqlıq gətirmişdir. Hidəcinin 58 beytlik qəsidəsi forma, kompozisiya və xarakteri ilə ənənəvi qəsidədən də fərqlənir. Yəni: 1) zəncan şivəsində yazılması; 2) mifik şəxsiyyətlərlə müasir zamanda yaşamış kimi birbaşa xitaba keçməsi.

Ən maraqlı burasıdır ki, şair türk və fars şeir tarixində ilk dəfə olaraq mükalimə (debat) şeir formasından istifadə edərək, qəsidəsində mifik şəxsiyyətləri mükalimə etməyə dəvət edir. Şair cəmiyyət və insan problemini də əhəmiyyətsiz saymır. Onun fikrincə, insan fərd kimi hər şeyə möhtacdır. Ona görə də daim hərəkətdə olmalıdır. Şərqin ayrı-ayrı filosoflarının fəlsəfi müddəalarını kor-koranə nəzərdən keçirməyən şair, cəmiyyətin sosial-siyasi inkişafını özünəməxsus şəkildə şərh edir.

Belə nəticəyə gəlmək olur ki, XİX əsrin ikinci yarısında Cənubi Azərbaycan poeziyası, xüsusilə klassik ədəbiyyatı (qəzəl, qəsidə, mədhiyyə və s.) dövrün ictimai məsələləri özündə dolğun əks

etdirən mövzulara önəm verməklə Cənubi Azərbaycan ədəbiyyatında realizmin inkişafına təkan vermiş oldu.

Dissertasiyanın II fəsli **”Cənubi Azərbaycanda nəsrin inkişaf təmayülləri və ideya-bədii xüsusiyyətləri”** adlanır. **“Bədii nəsrin inkişaf tendensiyası və ideya-bədii siqləti”** adlı paraqrafda aparılan araşdırmaların ümumləşdirməsi belə bir fikir sürməyə əsas verir ki. XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatında tənqidi realizm özünə yer alır, xəlqilik meylləri artır və yeni-yeni bədii janrlar yaranırdı. Təbii ki, Qərbi Avropa və Yaxın Şərq ölkələrinin ədəbiyyatı, xalqın adət-ənənələri, ölkədaxili məsələlərlə tanışlıq, məzmun və formaca yeni ədəbi çeşidlərinin yaranmasını tələb edirdi.

**“Zeynalabdin Marağayı. ”İbrahim bəyin səyahətnaməsi” əsərində Vətən və xalq təəssübkeşliyinin bədii təcəssümü. Milli idealın faciəsi”** adlı paraqrafda Z.Marağayının həyatı haqqında ədəbiyyatşünasların fikrinə toxunulur, həmçinin tədqiqatçı alim M.H.Mehdibəyovanın monoqrafiyasında Polyak şərqşünası F.Maxalskinin”Qartal yuvası” adlı tarixi povestinin müəllifinin Z.Marağayının olması iddiasına münasibət bildirilir, romanın Z. Marağayıya deyil, farsdiili nasir və ədəbiyyatşünas alim Zeynalabdin Mötmənə aid olduğu faktlarla aydınlaşır və “İbrahim bəyin səyahətnaməsi və ya təəssübkeşliyin bəlası” romanı realist ədəbiyyat nümunəsi kimi qiymətləndirilərək təhlil olunur. Kamran Məmmədov əsərə münasibət bildirərək yazır: *“Biz romana Zeynalabdinin ədəbi, ictimai, estetik və fəlsəfi fikirlərin məcmusu kimi baxdıq”*[10]. Maarif-pərvər nasir Zeynalabdin Marağayı “İbrahim bəyin səyahətnaməsi və ya təəssübkeşliyin bəlası” romanı ilə Azərbaycan nəsrini yeni tendesiya ilə təqdim edir. Bədii nəsr tariximizdə realist roman janrının ilk nümunəsi sayılan “İbrahim bəyin səyahətnaməsi” kitabı o zaman nəşr edildi ki, *“İran cəmiyyətinin digər zamanlardan daha çox ona ehtiyyacı var idi. Bu da onu göstərir ki, Məşrutə inqilabının sıçrayışı üçün bir növ bu kitab inqilab elementi oldu.”*[11] Əsərdə

---

[10] Məmmədov, K. XIX əsr Azərbaycan şeirində satira / K. Məmmədov. - Bakı: Elm, - 1975. - 117 s.

[11] سیاحتنامه ابراهیم بیگ یا بلای تعصب او اثر: حاج زین العابدین مراغه ای. با مقدمه و حواشی باقر مؤمنی. نشر سپیده. چاپ چهارم. بهار 1357. ص24.

nasirin toxunduğu məsələlər, qaldırdığı problemlər o qədər aktualdir ki, bu baxımdan da *"İbrahim bəyin səyahətnaməsi"nin müəllifi mədəni inqilabının qurucusu sayılır"*.[12] Əsərdə oxucu Zeynalabdin Marağayını xalqının ağrılı problemlərinə laqeyid qalmayan, ictimai yaraları İbrahim bəyin dili ilə anladan, Vətəninin mənəvi-əxlaq, sosial tənəzzülünü ürək ağrısı ilə qələmə alan, maarifi və elmi xalqının tərəqqisi üçün vəhdət şəklində götürən nasir kimi görür. Z.Marağayının sosial görüşləri və Vətən dərdi İbrahim bəydə tamamlanır. Təsadüfü deyildir ki: *"bu kitabın ideyası farsiyyənin orta təbəqəsinin oyanması və maariflənməsində böyük təsiri olmuşdur"*[13]. Əsərin aktuallığı ondadır ki, müəllifin bu romanı ölkədə tənqidi fikrin oyanmasına güclü təsir etmişdir.

**"Mirzə Əbdürrəhim Talıbov (Təbrizi). İctimai eybəcərliklər, satirik nəsrin dili gülüş hədəfi kimi, həyat həqiqətlərinin alleqorik inikası"** adlı paraqrafda M.Ə.Talıbovun həyat və yaradıcılığının tədqiqinə, həmçinin ədəbiyyatşünasların nasir haqqındakı fikir və araşdırmalarına münasibət bildirilmişdir. Ədibin Cənubi Azərbaycan ədəbiyyatına gəlişi və müzakirə obyektinə çevirdiyi məsələlər bədii dəyəri ilə mükəmməldir. Bədii əsərlərinin dili sadə, aydın, təsvir olunan hadisə və mənzərələr canlı və inandırıcıdır. M.Ə.Talıbov demokratiya sisteminin təsisinin tərəfdarı idi. Nasir siyasi, elmi, bədii, publisistik əsərlərini ölkənin inkişafının tənəzzülünə səbəb olan qüvvələrə qarşı sərt mövqeydə yazırdı. *"M.Ə.Talıbovun fikir və etiqadı qərb sivilizasiyasına söykənir. Ədib rasional və empirik fəlsəfənin tərəfdarlarından biri kimi tərəqqi və təkamül qanunlarına inanırdı"*[14]. O, elmi və siyasi görüşlərində M.F.Axundzadənin "Kəmalüddövlə məktubları"na, iqtisadi məsələlər mövzusunda isə Cənubi Azərbaycandakı (İran) sosial bərabərsizliyə və sinfi fərqlərə daha çox diqqət vermişdir. Məhz bu nöqteyi-

---

[12] سیاحتنامه ابراهیم بیگ یا بلای تعصب او اثر: حاج زین العابدین مراغه ای. با مقدمه و حواشی باقر مؤمنی. نشر سپیده. چاپ چهارم. بهار 1357. ص24.

[13] سیاحتنامه ابراهیم بیگ یا بلای تعصب او اثر: حاج زین العابدین مراغه ای. با مقدمه و حواشی باقر مؤمنی. نشر سپیده. چاپ چهارم. بهار 1357. ص24.

[14] رشنوزاده ،دانشنامه ادب فارسی: ادب فارسی در قفقاز (آذربایجان، ارمنستان، گرجستان، جمهوری خودمختار داغستان) ، جلد پنجم، تهران، ص 518

nəzərdən onu ictimai- siyasi demokratiyanın banisi kimi göstərilməsi heç də təsadüfü sayılmamalıdır. M.Ə.Talıbovun "Kitab yüklü eşşək" əsəri həm bədii strukturuna, həm də Azərbaycan nəsri kontekstində orijinallığına görə seçilən əsərlərdəndir. M. Ə.Talıbov bütün əsərlərində olduğu kimi "Kitab yüklü eşşək" romanında da mövcud cəmiyyətin qanun-qaydalarını, nadanlığı və insanın şəxsiyyətini alçaldan məsələləri önə çəkir, bununla da siyasi quruluşun o biri üzünü göstərmiş olur. Həyat həqiqətlərini alleqorik yolla açıqlayan nasirin həyat, elm, mədəniyyət haqqındakı düşüncələrini oxucu eşşəyin mühakimələri əsasında öyrənmiş olur. M.Ə.Talıbov cəmiyyəti düşündürən sualların cavabını, həmçinin qəlbində bəslədiyi azadlıq ideyalarını romanda gülüş hədəfi kimi götürdüyü Çoşşanın dili ilə açmaq istəmişdir.

Dissertasiyanın **"Cənubi Azərbaycanda dramaturgiyanın təşəkkülü və əsas inkişaf meylləri"** adlı III fəsli üç paraqrafdan ibarətdir. Cənubi Azərbaycanda - müasir İranda teatr və dramaturgiyanın yaradılmasını şərtləndirən amillər, irəli sürülən dəlil və sübutlara müasir aspektdən baxılmış, farsdilli dramaturgiyasının əsasını qoyan Mirzə Ağa Təbriziyə aid olan pyeslərin Mirzə Melkum xanın adı ilə tanınması fikrinə aydınlıq gətirilmiş, ədəbiyyatşünasların mülahizələri nəzərdən keçirilmişdir.

**"Cənubi Azərbaycanda dramaturgiyanın təşəkkül problemi və onu şərtləndirən amillər"** adlı paraqrafda Cənubi Azərbaycan dramaturgiyasının təşəkkülü və yanr özünəməxsusluğu önə çəkilir. Ədəbiyyatımızda yeni realist janrların yaranması milli şüurun oyanışına və tənqidi fikirlərin açıq şəkildə ifadə olunmasına tələbi artırdı. Şübhəsiz, həyat həqiqətlərini, insan münasibətlərinin dolğun realist təsvirini bilavasitə poeziyada və ya bədii nəsrdə axtarmaq sadəlövhlük olardı. Müasir həyat gerçəkliyini, müxtəlif ziddiyyətli məsələləri araşdırmaq, fikrin sərrast təcəssümünü özündə əks etdirmək baxımından yeni bir ədəbi janra ehtiyyac duyulurdu. Cənubi Azərbaycan ədəbiyyatının yeni bir ədəbi məcraya yönəlməsində, fikrimizcə, M.F.Axundzadənin rolu inkarolunmazdır. Milli teatr və dramaturgiyanın əsasını qoyan M.F.Axundzadənin ölkə gerçəkliyini əks etdirən yalnız komediyaları deyil, həmçinin

“Kamalüddövlə məktubları” fəlsəfi traktakı, “Aldanmış Kəvakib” povesti Cənubi Azərbaycanda mütərəqqi ictimai –siyasi fikrin inkişafında həlledici rol oynadı.

Müasir İran fars dilli teatr tarixində M.F.Axundzadənin layiqli davamçısı Mirzə Ağa Təbrizi ilə bağlı uzun müddət elm aləmini bir məsələ çox düşündürmüşdü: Cənubi Azərbaycan dramaturgiyasının əsasını qoyan bu pyeslər Mirzə Melkum xanındır, yoxsa elm aləmində adının gizli qalmasını istəyən Mirzə Ağa Təbrizinindir? Əslində, M.F.Axundzadənin arxivində pyeslərin Mirzə Ağa Təbrizi tərəfindən yazılmasını təsdiq edən dramaturqun iki orijinal məktubu və dram əsərlərinin əlyazmasının dörd nüsxəsi saxlanılır ki, bu da pyeslərin müəllifinin Mirzə Ağa Təbriziyə aid olmasına heç bir şübhə yeri qoymur. Haqqında bəhs olunan bu məsələ Cənubi Azərbaycanda ilk dəfə 1955-ci ildə M.B.Məhlucianın araşdırması ilə yenidən gündəmə gəlir. Ədəbiyyatşünas alimin yazdığına görə, Mirzə İbrahimovun Mirzə Ağa Təbrizi ilə bağlı yazdığı məqaləsi dramaturqun adı üzərindəki pərdəni qaldırmış oldu.

**“Mirzə Ağa Təbrizi Cənubi Azərbaycan (İran) ədəbiyyatşünaslığında”** adlı paraqrafda M.A.Təbrizinin Cənubi Azərbaycan ədəbiyyatşünaslığında tədqiqi məsələsinə yer verilir. XX əsrin 50-ci illərindən başlayaraq, Cənubi Azərbaycanda bütövlükdə nüasir İranda Mirzə Ağa Təbrizinin həyat və yaradıcılığına maraq güclənir, pyesləri tədqiqata cəlb olunur. Cənubi Azərbaycan (İran) ədəbiyyatşünaslarından M.B.Məhlucian, H.Salek, İ.Kərəmi, H.Düzgün, Səid Nəfisi, İrəc Əfşar, Qulamalı Fekri, İrəc Zəhri, Aynur Məhəmmədzadə Sədiq, Nilufər Şokrixudai və başqaları məqalə və məktublarında Mirzə Ağa Təbrizinin həyatından çox yaradıcılığını xarakterizə ediblər. Müəlliflərdən fərqli olaraq, Əbülqasım Cənnəti M.F.Axundzadədən sonra ikinci müəllif kimi Mirzə Ağa Təbrizini farsdilli dramaturgiyanın banisi kimi tanımaq istəmir. Yəni, “Baqqal oyunu”nu zamanın birinci və ən mühüm əsəri kimi götürərək müasir İran dramaturgiyasının ilk əsəri hesab edir. Fikrimizcə, M.A.Təbrizi pyeslərini M.F.Axundzadənin təsiri ilə yazsa da ilk dəfə olaraq şablondan kənara çıxaraq teatr tamaşasını xalq hərəkəti ilə bağlamış, gündəlik məişət məsələlərindən tutmuş ictimai problemlərə qədər,

xüsusilə feodal şah üsul idarəsini təndiq edərək, satira atəşinə tutmuşdur. Dramaturq pyeslərində Fransa inqilabının ilkin rüşeymlərinə toxunmuş və mövcud ictimai mühitin mənəvi əxlaqi məsələlərini tamaşaçısına göstərə bilmişdir.

**"Mirzə Ağa Təbrizi yaradıcılığının tematikası, ideyalar və obrazlar aləmi"** adlı paraqrafda Mirzə Ağa Təbrizinin həyat və yaradıcılığı, obrazların xarakterləri təhlil olunur. Ədib pyeslərində Hacı Mürşid kimyagər, hakim Zaman xan, Hacı Pirqulu, Ərəbistan hakimi Əşrəf xan və s. bu kimi mənfi tiplər vasitəsi ilə şah üsul-idarəsinin konkret xüsusiyyətlərini ümumiləşdirərək fərdi keyfiyyətlərə malik, dolğun xarakterlər yaratmışdır. M.F. Axundzadənin: "*Ümid edirəm ki, sənə göstərdiyim kimi tamamlayıb çap etdirərsiniz və millətə bir xidmət edərsiniz*"[15] tövsiyələrindən, dünyagörüşündən və dramaturgiyasından faydalanan Mirzə Ağa Təbrizi 1) "Ərəbistan hakimi Əşrəf xanın sərgüzəştləri"; 2) "Hacı Mürşid Kimyagər"; 3) "Ağa Haşim Xal-Xalinin sərgüşətləri"; 4) "Şaqqulu Mirzənin Kərbəla səfəri"; 5) "Zaman xan Birucirdi" adlı komediyalarını yazmaqla Cənubi Azərbaycanda ilk farsdilli dramaturgiyanın yaradıcısı olmaq imzasını qazanmış oldu.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətli təklif və tövsiyələr verilmişdir.

Mövzu ilə bağlı araşdırma zamani gəldiyimiz qənaət göstərdi ki, XIX yüz il məhsuldar əsr kimi demokratikliyin, realizmin, xəlqiliyin yeni aspektlərdə yayılmasına, dramaturgiyanın, milli teatrın, operanın, mətbuatın, nəsrin möhkəmlənməsinə, həmçinin maarifçi-realist ədəbi cərəyanların inkişafına geniş zəmin yaratdı. Bu əsrdə satiranın dairəsi genişləndi, tənqidi realizm əsas yaradıcı metod kimi özünü daha qabarıq göstərmiş oldu. Şimali Azərbaycan ədəbiyyatında Abbasqulu ağa Bakıxanov, Qasım Bəy Zakir, Mirzə Baxış Nadim, Seyid Əzim Şirvani, Mirzə Şəfi Vazeh, xüsusilə, Cənubi Azərbaycan və müsair İranda ədəbi-ictimai fikrin inkişafında

---

[15] آدمیت، فریدون، اندیشه های میرزا فتحعلی آخوندزاده، تهران، انتشارات خوارزمی، سال 1349، ص292

müstəsna xidməti olan Mirzə Fətəli Axundzadənin ədəbi görüşləri Cənubi Azərbaycan ədəbiyyatının nümayəndələrinin, o cümlədən Zeynalabdin Marağayı, Mirzə Əbdürrəhim Talıbov (Təbrizi) və Mirzə Ağa Təbrizinin yaradıcılığında müsbət rol oynadı.

-XIX əsr Cənubi Azərbaycan şairlərinin, xüsusilə, Məhəmməd Xəlifə Aciz, Molla Hüseyn Marağayı Dəxil, Mirzə Mehdi Şükuhi, Hacı Rza Sərraf və s. yazdıqları mərsiyələr mövzusu ilə deyil, poetikası ilə diqqəti cəlb edir. Bu dövrün şairləri yaradıcılıqlarında bədii təsvir və ifadə vasitələrindən məharətlə istifadə etmiş, poetik sintaqmlardan ozünəməxsus şəkildə bəhrələnmişlər.

- XIX əsrin 50 -90-cı illər yeni ictimai fikrin formalaşmasına zəmin yaradır, nisbi oyanış cəmiyyətin orta təbəqəsindən çıxmış ziyalı təbəqənin dünyagörüşünə təsir edir.

- Şairlərin əsərlərində fərd və cəmiyyət diqqət mərkəzində saxlanılır, həyata, insana yeni baxış formalaşdıran poeziya yaranmağa başlayır. Məhəmməd Xəlifə Aciz, Molla Hüseyn Marağayı Dəxil, Mirzə Mehdi Şükuhi, Hacı Rza Sərraf, Əbülhəsən Raci və s. mərsiyələrində dünyəvi hisslər bəşəri arzularla əvəz olunmağa başlayır, insanlara zülmə baş əyməmək və əqidə yolunda dönməzlik hissləri aşılanır.

- Yazılan əsərlərdə insanı düşündürürən sualların fəlsəfi cavabları çoxalır və rüşeym halında hallandırılan problemlər bəşəri problem kimi tövsiyə olunur. Birtərəfli təhsil, dünya sivilizasiyasından geri qalma halları digər məsələlər nasirlərin əsərlərində tamamilə yeni mahiyyət kəsb edir, həyata yeni baxış formalaşır.

- Avropa mədəniyyəti ilə tanışlıq, xarici kapitalın nüfuzu ticarət və maliyyə bazarında özünü göstərməsi getdikcə kapitalizmin inkişafına təsir edir, nəticədə Cənubi Azərbaycan ədəbiyyatına Qərb mədəniyyətinin təsirini gücləndirmiş olur. Bu məqamda söz sahibləri hadisələri daha "ayıq gözlə" nəzərdən keçirir, həyatda necə yaşadıqları haqqında düşünür, eyni zamanda Mirzə Fətəli Axundzadənin fəlsəfi görüşlərinə söykənərək həmvətənlərini ayıltmağa və maarifləndirməyə çalışırlar.

- Əsrin ortalarında yaranan tənqidi realizm poeziyada qabarıq şəkildə özünü göstərməyə başlayır. Bu halda əsərlərində romantik duyğular, hisslər, məhəbbəti təsvir edən sənətkarların bir qismi, xüsusilə Əbülqasım Nəbati, Mirzə Mehdi Şükuhi, Məhəmməd Bağır Xalxalı insana yüksək bəşəri ideyalar aşılayan realist mövzulara üstünlük verməyə başlayırlar.

- XIX əsr 80-90-cı illəri Mirzə Fətəli Axundzadənin ədəbi-bədii məktəbinin layiqli davamçılarından hesab olunan: Mirzə Ağa Təbrizi, Zeynalabdin Marağayı, Mirzə Əbdürrəhim Talıbov-(Təbrizi) və s. söz sahibləri mövzu baxımından dövrün ictimai reallıqlarını özündə ehtiva edən əsərlərində həmvətənlərini ayıltmaq, gözlərini bağlamış cəhalət pərdəsini qaldırmaq istəyir, millətini digər xalqların qabaqcıl fikirlərini mənimsəməyə çağırırlar.

- XIX əsr ədəbiyyatında Abasqulu ağa Bakıxanov, Seyid Əzim Şirvani, Qasım bəy Zakir, Mirzə Fətəli Axundzadə, Zeynalabdin Marağayi, Mirzə Əbdürrəhim Talıbov (Təbrizi), Mirzə Ağa Təbrizi və s. Quzey və Güney Azərbaycan ədəbiyyatında tənqidi-satirik realizm cərəyanının yaranmasında, qabaqcıl ictimai ideyaların formalaşmasında, hər iki xalqın mədəniyyətinin Yaxın Şərq və Avropa xalqları arasında yayılmasında mütərəqqi ədəbi fikrin reallaşmasında böyük və təqdirəlayiq iş görmüşlər.

- Cənubda-Təbrizdə “Əxbari dər səltəneyl Azərbaycan” (1858), Şimalda Həsən bəy Məlikov Zərdabinin təşəbbüsü ilə “Əkinçi” (1875) qəzetinin nəşri ilə rəsmi dövri mətbuatın əsası qoyulur.

- Mirzə Fətəli Axundzadənin dünyagörüşündən və dramaturgiyasından faydalanan Mirzə Ağa Təbrizinin simasında Güney Azərbaycanda ilk farsdilli dramaturgiya yaranır.

- Tədqiqat vaxti fakt və dəlilərlə əsaslanaraq bu nəticəyə gəlmək olur ki, Mirzə Fətəli Axundzadənin ədəbi-bədii məktəbinin bilavasitə layiqli davamçı hesab olunan Mirzə Ağa Təbrizi Cənubi Azərbaycan (İran) dramaturgiyasının banisi, beş yazılı pyesi isə fars dilli dramaturgiyanın ilk əsərləri hesab olunur.

- XIX əsrin ikinci yarısında Cənubu Azərbaycan ədəbiyyatında Zeynalabdin Marağayı, Mirzə Əbdürrəhim Talıbov(Təbrizi), Mirzə Yusif xan, Mirzə Həsən Təbrizi Rüşdiyyə və s. timsalında istər ideya

və mövzu, istərsə də poetika baximdan yeni-yeni nəsr nümunələri meydana gəlir.

- Ümumiyyətlə, XIX əsrin 90-cı illəri ziddiyyətli və təlatümlü dövr kimi Cənubi Azərbaycan xalqının həyatında imperialist qüvvələrə qarşı ümumxalq mübarizənin yüksəliş əsri olaraq özünü göstərmişdir. İstər Şimal, istərsə də Cənubi Azərbaycan ədəbiyyatında bu dövr məhsuldar, zəngin bir mərhələ kimi tarixə daxil olmuş, XX əsrdə Cənubi Azərbaycan xalqının oyanışı üçün zəmin yaratmışdır.

- XIX yüzüliyin ikinci yarısından etibarən Şimali və Cənubi Azərbaycan ədəbiyyatının təbirindəki birliyin möhkəmliyi sayəsində Cənubi Azərbaycanın şair və nasirləri Rusiya, Avropa hadisələrinə və mədəniyyətinə maraq göstərməyə başladılar. Elm, diplomatiya, hərb, təhsil, tərcümə sahəsində əlaqələrin genişlənməsi xalq kütlələrinin maariflənməsinə və milli oyanışa şərait yaratdı. 1905-1911-ci illərin inqilabları, əslində XIX əsrin 90-cı illərində baş verən maarifçilik hərəkatından bilavasitə qaynaqlanır.

- Cənubi Azərbaycan (Iran) ədəbiyyatının yeni məcrada formalaşmasında, ədəbi-bədii fikri realist demokratik istiqamətə yönəlməsində ictimai xadim. dramaturq Mirzə Fətəli Axundzadənin ardıcıl apardığı işlərin inkişafı ilə daha çox bağlı olmuşdur.

**Dissertasiya işinin əsas nəticələri aşağıdakı elmi işlərdə dərc edilmişdir:**

1. XIX əsrin II yarısında Cənubi Azərbaycanda ədəbi-mədəni mühit //- Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, - 2016. № 1 (97),- s.237-239.
2. XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatında poeziya //- Bakı:-Filologiya məsələləri,- 2016. № 1, s. 354-359.
3. XIX əsrin ikinci yarısında Cənubi Azərbaycan ədəbiyyatında nəsr və onun inkişafı //- Bakı :Filologiya məsələlərı,- 2018. № 7,- s. 349-353.
4. Mirzə Mehdi yaradıcılığında irfani fikirlər //- Bakı: Filologiya məsələlərı,- 2018 № 14: s. 286-297.

5. Nəbati yaradıcılığında “Vücudi-vəhdət” aşiqliyi //-Bakı: Filologiya məsələlərı,- 2018. № 19, s. 279-286.

6. Seyid Əbuqasim Nəbatinin “Sirlərə” Vaqif olma aşıqlıyı// ”Cumhuriyet 1. Uluslararası sosyal bilimler kongresi. Ubak Uluslararası Bilimler Akademisi”.- Sivas: 19 aprel-21 aprel,- 2019,- s. 39-49.

7. Təbrizli filozof şair Mehemmed Hidecinin kelmeye doğal bakışı // “Karadeniz 2. Uluslararası sosyal bilimler kongresi. Ubak Uluslararası Bilimler Akademisi”,- Rize: 23avqust-25 avqust ,-2019,- s. 669-673.

8. XIX əsr Cənubi Azərbaycan poeziyasından seçmələr. Ağa Məhəmməd Bağır Xalxalı və “Sələbiyyə” məsnəvisində şairin ictimai-fəlsəfi görüşləri // -Bakı: Filologiya məsələləri,- 2021. № 6,- s. 339-347.

9. Cənubi Azərbaycan ədəbiyyatından seçmələr. Məhəmməd Xəlifə Aciz yaradıcılığına bir baxış //- Bakı: Elmi əsərlər, dil və ədəbiyyat seriyası, Slavyan Universiteti,- 2021. № 1,- s. 228-232.

10. XIX əsrin ikinci yarısında Cənubi Azərbaycanda maarifçilik hərəkatı (Mirzə Həsən Rüşdyyənin pedaqoji fəaliyyəti) //- Bakı: Türk filologiyası. Bakı Dövlət Universiteti,- 2021. №1, - s. 66-72.

11. Новаторство в лирике Сеида Абулькасима Набати Miedzynarodowe czasopismo naukowe.//- Warszawa, Polska: Miedzynarodowe czasopismo naukowe,- 2021. № 36 (123),- s.52-56.

12. Sağlam nəsil problemi bədii ədəbiyyatda (A.M.Bağır Xalxalinin “Sələbiyyə” əsəri)// “Xəzər Universitet”i,- Bakı:- 7yanvar-9 yanvar,- 2022,- s. 502-505.

13. “Kitab yüklü eşşək “romanında Mirzə Əbdürrəhim bəy Talıbovun ictimai-siyasi fəlsəfi düşüncələrinin əksi. (XIX əsr Güney Azərbaycan bədii nəsrindən seçmələr) // “Avrasiya- Bakı-Ankara”: - 18 Fevral -22 Fevral,- 2022,- s. 184-189.

14. Güney Azerbaycan edebiyyatından seçmeler: Z.Marağayı”İbrahim beyin seyahetnamesi ve ya teessübkeşliyin belası” eserinde kadın haklarının müdafieçisi gibi.// Uluslararası

İstanbul Modern Bilimsel Araşdırmalar konqeresi:-16 aralık-18 aralık,-2022, s.284-287.

15. .Z.Maragalının"İbrahim beyin seyahetname" eserinde toplumsal yaralar İbrahim beyin diliyle.//Tunceli-Türkiye: Munzur4.Uluslarası Sosyal Bilimler konqersi.-13 avqust-14 avqust,-2022,s.71-74.

16. Güney Azerbaycan edebiyatından seçmeler: Mühemmed Dilsuzun tassavüf ve ürfani görüşleri.// Uluslararası İstanbul Moderin Bilimsel Araşdırmalar konqeresi:-9 iyul-14 iyul,-2023,s.36-40.

17. 19.yüzyılın ikinci yarısında Güney Azerbaycan şairlerinin eserlerinde kadının hayatverici neşe dibi tarifi.// Türkiye: Türk Dünyası Kadın Araştırmaları Dergisi,-2023.№2, s. 43-48.

18. Kadın ve edebiyat (Güney Azerbaycan şaırlerinin eserlerinde kadına yeni bir bakış.// Kazaxıstan: Dünya Kadın konqeresi.-28 ıyul-31 iyul,-2023. s. 223-226.

Dissertasiyanın müdafiəsi 22 fevral 2024-cü il tarixində saat 16⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 yanvar 2024 il tarixində zəruri ünvanlara göndərilmişdir.

**Çapa imzalanıb: 22.01.2024**

**Kağızın formatı: 60x84/ 1/16**

**Həcm: 39247 işarə**

**Tiraj: 100 ədəd**